**MƏLAHƏT ƏLİYEVA**
**Odlar Yurdu Universiteti**
**e-mail:gunduz.aliyev.55@mail.ru**

# SİFƏTLƏRİN MƏNASINA GÖRƏ TƏSNİFİ VƏ DƏRƏCƏLƏRI İSIMLƏŞMİŞ SİFƏTLƏR

**Açar sözlər :** Sifətlərin mənasına görə təsnifi və Dərəcələri. Isimləşmiş Sifətlər.
**Ключевые слова :** Классификация Прилагательных по смыслу и его Степени. Субстантивированные Прилагательные.
**Key words :** Classification of Adjectives according to their meaning. Degree of Adjectives. Substantivized adjectives.

Müasir ingilis dilinin morfologiyasında və eləcə də leksik sistemində sifət mühüm yerlərdən birini tutur. Sifət nitq hissələrindən biridir və əlamətin kateqorial mənasını ifadə edir. Müasir ingilis dilində sifətə xas olan xarakterik xüsusiyyətlərdən biri də ondan ibarətdir ki,sifət zərflə təyin oluna bilir. Qeyd etmək lazımdır ki, dilin inkişafı daim təkmilləşir və bu proses bu və ya digər dərəcədə dilin bütün sahələrində baş verir lakin lüğət tərkibində leksik sistemdə baş verən dəyişiklər, zənginləşmələr özünəməxsus şəkildə həyata keçir.Bütün dillərdə olduğu kimi ingilis dilində də dilin lüğət ehtiyatı surətlə artır. Bu cəhət, hər şeydən əvvəl, elm və texnikanın, incəsənətin inkişafı ilə əlaqədardır. Burada törəmə söz leksik təhlilin bir obyekti kimi verilir, şəkilçilər və prefikslər arasında struktur və semantik baxımdan fərqlər açıb göstərilir.Ingilis dilinin leksik sistemində şəkilçilər və prefikslər vasitəsilə törəyən sifətlərin tədqiqi ingilis dilinin öyrənilməsində mühüm yer tutur.

**Sifətin quruluşuna görə təsnifi.**

Sifət nitq hissəsi olub, əlamətin kateqorial mənasını xarakterizə edir. Sifətlər quruluşuna görə üç qrupa bölünür :

• Sadə sifətlər ( ancaq bir kökdən ibarət olan sifətlərə sadə sifətlər deyilir , məsələn : short, long, fresh, black və s.

• Düzəltmə sifətlər (kök və şəkilçidən ibarət olan sifətlər düzəltmə sifətlər adlanır. Düzəltmə sifətlər suffiks yaxud prefikslər və ya hər ikisinin vasitəsilə düzəlir , məsələn : comfortable, unkind,useful , illegal və s)

• Mürəkkəb sifətlər (iki və daha artıq kökdən düzələn sifətlər mürəkkəb sifətrlər adlanır , məsələn: blue – eyed, pickpoket , appletree və s.)

**Sifətin dərəcələri.**

Sifətin üç dərəcəsini qeyd etmək olar : adi dərəcə , müqayisə dərəcəsi və üstünlük dərəcəsi. Sifət hər hansı bir keyfiyyəti müqayisəsiz ifadə edirsə ona adi dərəcə deyilir.Müasir ingilis dilində sifət adi dərəcədə

heç bir morfoloji formaya malik olmur. Sifət adi dərəcədə **as ...as**, **not so .... as** bağlayıcıları vasitəsilə düzəlir. **As .....as** bağlayıcısı ilə adi dərəcədə olan sifət keyfiyyətin bərabər dərəcəsini ifadə edir, **not so ....as** bağlayıcısı ilə işlənən şəxs və ya əşya qeyri – bərabər əlamət, keyfiyyətə malik olduğunu bildirir , məsələn :

Our task is **as** difficult **as** yours – Bizim tapşırığımız sizinki kimi asandır.

Your way is **not so** long **as** theirs- Sizin yolunuz onlarınkı kimi uzun deyil. Müqayisə dərəcəsi aşağıdakı şəkildə əmələ gəlir : təkhecalı sifətlərin müqayisə dərəcəsi sadə formada yəni sifətin sonuna **er** , çoxhecalı sifətlərin müqayisə dərəcəsi isə sifətdən əvvəl **more** sözü artırmaq vasitəsilə düzəlir.( longer , more comfortable ) . Axırı **"er"** **"y"** **" ow "** **"able"** hərf birləşmələrindən biri ilə bitən sifətlər çoxhecalı olmasına baxmayaraq yuxarıda göstərdiyimiz qayda ilə yəni müqayisə dərəcəsini **er** , üstünlük dərəcəsini **est** vasitəsilə əmələ gətirir , məsələn: clever , cleverer, cleverest

Sifətin müqayisə dərəcəsində hər hansı bir şəxs və ya əşyanı biri birindən fərqləndirərkən **than**_bağlayıcısından istifadə olunur. Bu bağlayıcı dilimizdə -**dan daha , - dən daha** da kimi tərcümə olunur , məsələn :

This book is more interesting **than** that one.

Onu da qeyd etmək lazımdır ki, heç də bütün keyfiyyət bildirən sifətlər müqayisə dərəcəsində işlənmir :

Ish şəkilçisi ilə işlənən sifətlər : ( greenish , darkish , snobbish )

Inkar məzmun ifadə edən sifətlər ( impossible , unsuitable ).

Müqayisəyə meyilli olmayan keyfiyyət ifadə edən sifətlər : absolute , extreme , entirely , exclusive , chief , principal , final , primary, unique .

Latın dilindən alınmış **superior** və **inferior** müqayisə zamanı şəkilçi qəbul etmir. Həmin sifətlərin müqayisə dərəcəsi belə düzəlir : **very much superior** və **far superior (3. səh40).**

Azərbaycan dilində olduğu kimi , ingilis dilində də üstünlük dərəcəsi əşya və ya şəxsin ən yüksək keyfiyyətə malik olduğunu bildirir. Təkhecalı sifətlərin üstünlük dərəcəsi **est** ,çoxhecalı sifətlərin üstünlük dərəcəsində isə sifətdən əvvəl **most** sözü artırmaqla düzəlir , məslən: longest- **ən** uzun, most comfortable - **ən** rahat

Müasir ingilis dilində bir sıra sifət vardır ki , onların dərəcə formaları , yəni adi , müqayisə və üstünlük dərəcə formaları kökdən dəyişmək vasitəsi ilə düzəlir.Onlar asağıdakılardır :

| Adi dərəcə | Müqayisə dərəcəsi | Üstünlük dərəcəsi |
|---|---|---|
| good | better | best |
| bad | worse | worst |
| little | less | least |
| far | farther/further | farthest/furthest |

| | | |
|---|---|---|
| old | older/elder | oldest/eldest |
| late | later/latter | latest/last |

**İsimləşmiş sifətlər.** Sifətlər nitqin ismi hissəsi olduğundan inkişaf prosesi nəticəsində ismin bu və ya digər kateqoriyasını qəbul edə bilir. Sifətlər heç də həmişə cümlədə təyin funksiyasında çıxış edə bilmirlər. Bu o deməkdir ki , onlar bəzən özlərinin əsas qrammatik mənasını təyin etmək əlamətlərini itirirlər. Belə olduqda, onlar isimlik anlayışını qəbul edirlər və çox asanlıqla isimlik kateqoriyalarına daxil olurlar və isimləşir , ismin morfoloji əlamətlərini qəbul edir. Deməli , ismin xüsusiyyətlərinə malik olan , yəni cəm və hal şəkilçisi qəbul edən , artiklla işlənə bilən sifətlər tamam isimləşmiş sifətlər adlanır. Isimləşmə zamanı həmin sifətlər ismə xas olan müxtəlif sintaktik funksiyalarda çıxış edirlər və özlərinin leksik mənalarını itirmirlər. Bunu aşağıdakı misallarda göstərmək olar (4. səh 202) :

- You are different from **the rich** people.
- **The rich** lived very well during that war.

Birinci cümlədə " **rich**"( varlı , zəngin) sözü sifət , ikinci cümlədə isə "**the rich** " ( varlılar , zənginlər ) sözü isimləşən sifətdir. Isimləşmə ( substantivləşmə ) azərbaycan dilində də geniş işlənir , məsələn : Tamam gözəllərdən səni baş bildim. Beləliklən verilmiş misallardan aydın olur ki isimləşmiş sifətlər azərbaycan dilinə də xasdır.Onu da qeyd edək ki , hər iki dildə isimləşmə zamanı cəm şəkilçilərinin qəbul edilməsi eyni tərzdə olmur. Məsələn ingilis dilində rich ( varlı ), poor ( kasıb ), blind ( kor ) sözləri isimləşmə zamanı ismin cəm şəkilçilərini qəbul etmirlər. Lakin qeyd edilməlidir ki , həmin isimləşən sifətlər semantik cəhətdən həmişə ismin cəm halında nəzərdə tutulur. Azərbaycan dilində isə fərqli olur, yəni isimləşmiş sifət həm təkdə , həm də cəmdə işlənə bilər. Ingilis dilində bəzən sifətlərin isimləşməsi zamanı artikl işlənməyə də bilər. Bu o zaman mümkün olur ki , sifətlər cümlənin həmcins üzvləri kimi **and** bağlayıcısı ilə işlənsin. Bunu aşağıdakı misallardan görmək olar :

It was a day of happiness for rich and poor.

Millət adı bildirən natamam isimləşmiş sifətlər cəm şəkilçisi (-s) qəbul etmir , lakin onlar milləti bir toplu halında bildirə bilər. Bu halda həmin sifətlərin qarşısında müəyyənlik artiklı işlədilir , məsələn :

| | |
|---|---|
| a Chinese – Çinli | the Chinese – Çinlilər |
| a Japanese – Yapon | the Japanese – Yaponlar |

Qeyd : English , Spanish , French , Dutch sifətləri də isimləşərək , yəni müəyyən artikl qəbul edərək bütövlükdə milləti bildirir. Beləliklə , the English dilimizə İngilislər , the Dutch – Hollandlar , the French – Fransızlar deyə tərcümə edilir. Əgər söhbət bu millətlərə xas olan ayrı - ayrı fərdlərdən gedirsə , o zaman mürəkkəb isim işlənir , məsələn : an Englishman , an Englishwoman , a Frenchman , a Frenchwoman

Müasir ingilis dilində isimləşmiş sifətlər iki qrupa bölünür :

- Tamam isimləşmiş sifətlər
- Natamam isimləşmiş sifətlər

Ismin bütün xüsusiyyətlərinə malik olan ,yəni cəm və hal şəkilçisi qəbul edən , artiklla işlənən sifətlər tamam isimləşmiş sifətlər adlanır , məsələn: a native , the native , natives , a native's flat. (1,109)_

Ismə xas olan bütün morfoloji xüsusiyyətləri deyil , yalnız bir qismini qəbul edə bilən sifətlər isə natamam isimləşmiş sifətlər adlanır. Bu cürə sifətlər müəyyənlik artiklı ilə işlənərək bütöv bir sinfə aid olan ismi bildirir , məsələn : the young , the old , the future və s.

**Isimləşmə zamanı omonimlərin yaranması.**

Ingilis dilində sifətlərin isimləşməsi zamanı yeni söz yaranır ki , bu da öz növbəsində sözbirləşməsində özünəməxsus yeri olan omonimin yaranmasına səbəb olur. Omonimin yaranmasına azərbaycan dilçiliyində xüsusi diqqət verilir.Belə bir cəhəti qeyd etmək lazımdır ki , ingilis dilində sifətin qarşısında artikln işlənməsi Isimləşmənin əlaməti hesab edilməlidir və bu əsasən qeyri müəyyən artiklla yox, müəyyən artiklla baş verir ,məsələn :

All the red and white in all the toy-shops in London could not make a beauty of her.

**Ədəbiyyat**


1. Ismixan Rəhimov <İngilis dilinin qrammatikası> 2012
2. Oruc Musayev <Ingilis dilinin qrammatiksı> 1979
3. Raymond Murphy< English Grammar inUse> fourth edition 2012


**M. Aliyeva**

**Classification of Adjectives according to their meaning**

**Summary**

This article is dedicated to the classification of adjectives. It provides general information about the degrees of adjectives and substantivized adjectives. Grammar is important because it is the language that makes it possible for us to talk about language. Grammar names the types of words and word groups that make up sentences not only in English but in any language. And knowing about grammar offers a window into the human mind and into our amazingly complex mental capacity. Adjectives tell the reader how much or how many of something you're talking about, which thing you want passed to you, or which kind of something you want.

An adjective can add color and life to your sentence, and it can add important information, but that's not all. Adjectives have many other uses. They can tell you the quantity of things and they can help you compare two things. Adjectives are used much more often than even native speakers think. They are useful tools for speaking English well, so it's important to learn how to use them correctly. Adjectives are words that describe or modify other words, making your writing and speaking much more specific, and a whole lot more interesting. Choose your adjectives carefully and use them when they have the greatest impact!

**М. Алиева**

**Классификация Прилагательных по смыслу и его Степени**

**Резюме**

Эта статья посвящена классификации прилагательных. Он предоставляет общую информацию о степенях прилагательных и обоснованных прилагательных. Грамматика важна, потому что именно язык позволяет нам говорить о языке. Грамматика называет типы слов и групп слов, которые составляют предложения не только на английском , но и на любом языке. А знание грамматики открывает окно в человеческий разум и в наши удивительно сложные умственные способности. Прилагательные это слова, которые описывают качества или состояния существительных. Они также могут описать количество существительных. Прилагательное может добавить цвет и жизнь к вашему предложению, и это может добавить важную информацию, но это еще не все. Прилагательные имеют много других применений. Они могут сказать вам количество и качество вещей, и они могут помочь вам сравнить две вещи. Прилагательные используются гораздо чаще, чем думают даже носители языка. Это полезные инструменты для хорошего разговорного английского, поэтому важно научиться правильно их использовать. Прилагательные это слова которые описывают или изменяют другие слова, делая ваше письмо и речь намного более конкретными и намного более интересными. Тщательно выбирайте свои прилагательные и используйте их, когда они оказывают наибольшее влияние!

**Rəyçi : Ülviyyə Nəsirova**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**